Jl. Mas Putih Blok D No 29
Permata Hijau Kebayoran Lama
Jakarta Selatan 12210
Tel. : 549 19 39
Fax : 549 17 45
E-mail: azjkt@azembassy.or.id

Azərbaycan Respublikasının Səfirliyi
Cakarta

Press-reliz

5 iyun 2009-cu ildə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcmasının Qurultayı keçirilmişdir.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcmasının Qurultay barədə Press-relizi əlavə olunur.

19 iyun 2009-cu il

# Press-reliz

5 iyun 2009-cu ildə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcmasının Qurultayı keçirilmişdir.

Qurultayda 65 min nəfərdən çox insanı birləşdirən icmanın 3,500 seçilmiş nümayəndələri iştirak etmişdir. Qurultay ərəfəsində icma üzvləri ilə 69 görüş keçirilmiş, Qurultayda iştirak etmək məqsədilə 350 nümayəndə seçilmişdir.

Qurultay 22 nəfərdən ibarət İdarə Heyətini formalaşdırılıb. Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması İctimai Birliyinin İdarə Heyətinin sədri seçilib.

Ümumiyyətlə, təcavüz nəticəsində 20 mindən çox azərbaycanlı həlak olmuş, 50 mindən çox insan yaralanmış və ya əlil olmuşdur. 890 yaşayış məntəqəsi, orada yerləşən sosial-iqtisadi infrastruktur, təhsil, səhiyyə və mədəniyyət müəssisələri, tarixi abidələr və məscidlər dağıdılmışdır. Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon nəzarətsiz zonaya, transmilli cinayətkar qruplar üçün əlverişli dayaq nöqtəsinə çevrilmişdir.

Azərbaycan və Ermənistan müstəqil dövlətlər kimi Birləşmiş Millətlər Təşkilatına üzv olduqdan sonra Dağlıq Qarabağ problemi regional çərçivəni aşaraq, beynəlxalq xarakter almışdır. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla bağlı 822, 853, 874 və 884 saylı qətnamələrində Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmət ifadə edilmiş, zor işlədilməklə sərhədlərin dəyişdirilməsinin yolverilməzliyi qeyd olunmuşdur. Bu sənədlərdə silahlı əməliyyatlara və düşmənçilik hərəkətlərinə son qoyulması, erməni hərbi birləşmələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb edilmişdir.

BMT Baş Məclisi 59, 60 və 62-ci sessiyalarında Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyətə dair məsələni müzakirəyə çıxarmışdır. Azərbaycan hökumətinin təqdim etdiyi faktlar və ATƏT-in faktaraşdırıcı missiyasının məruzələri əsasında Baş Məclis işğal olunmuş ərazilərdə ermənilərin məskunlaşdırılmasını, kütləvi yanğınların törədilməsini, bu yanğınların ətraf mühitə, insanların sağlamlığına və həyatına təhlükə yaratmasını pisləyən qətnamələr qəbul etmişdir. Həmin sənədlərdə işğal olunmuş ərazilərdən qovulmuş əhalinin öz yurd-yuvalarına qayıtmaq hüququ bir daha təsdiq olunmuşdur.

Digər nüfuzlu beynəlxalq təşkilatlar da münaqişənin sülh yolu ilə aradan qaldırılması istiqamətində müəyyən qərarlar qəbul etmişlər. Avropa Şurası Parlament Assambleyasının 2005-ci il 1416 saylı qətnaməsində Azərbaycan ərazilərinin ermənilər tərəfindən işğal olunduğu və separatçı qüvvələrin Dağlıq Qarabağ bölgəsinə nəzarət etdiyi göstərilmiş, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrində əks olunmuş tələblərin yerinə yetirilməsinin və silahlı qüvvələrin işğal olunmuş ərazilərdən çıxarılmasının vacibliyi vurğulanmışdır. Bu tələblər AŞPA-nın 2005-ci il 1690 saylı tövsiyəsində də öz əksini tapmışdır.

Problemin həlli üçün müəyyən səylər göstərilməsinə baxmayaraq, təəssüf ki, indiyədək onun aradan qaldırılması istiqamətində əsaslı irəliləyişə nail olunmamışdır. Münaqişənin nizamlanması məqsədi ilə yaradılmış ATƏT-in Minsk qrupunun fəaliyyəti Ermənistan Respublikasının qeyri-konstruktiv mövqeyi ucbatından lazımi səmərə verməmişdir. Beynəlxalq təşkilatların, vasitəçi dövlətlərin çox zaman siyasi iradə nümayiş etdirməməsi, qətiyyətsiz mövqe tutması, işğalçı ilə təcavüzə məruz qalmış tərəf arasında tarazlıq yaratmaq cəhdləri münaqişənin tezliklə və dinc yolla tənzimlənməsinə əngəl törətmişdir.

Sizi Azərbaycan xalqının üzləşdiyi tarixi ədalətsizliyin aradan qaldırılması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, beynəlxalq hüquq prinsiplərinə uyğun həll edilməsi üçün ardıcıl səylər göstərməyə çağırırıq. İnanırıq ki, Siz Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsindən məcburi köçkün düşmüş azərbaycanlı icmanın çağırışlarına biganə qalmayacaq, münaqişənin ədalətlə həll olunması üçün daha qətiyyətli və prinsipial mövqe tutacaqsınız.

Bakı şəhəri, 5 iyun 2009-cu il.